# Azərbaycan Respublikasında KOB klaster şirkətlərinin yaradılması

KOB

Azərbaycan Respublikasının
Kiçik və Orta Biznesin
İnkişafı Agentliyi

**Ən azı 10 mikro, kiçik və orta sahibkarlıq subyekti**




- ✓ **Məhsulun xammal və material dəyərinin 50 faizinin klaster iştirakçısı olan yerli istehsalçılardan təchiz edilməsi**
- ✓ **Kommersiya hüquqi şəxs kimi dövlət qeydiyyatına alınan**
- ✓ **Əhəmiyyətli qərarların Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (bundan sonra - Agentlik) ilə razılaşdırmaqla yerinə yetirməsi nizamnaməsində əks edilən**
- ✓ **Fəaliyyət sahəsinin aşağıdakı 3 istiqamətdən birinə uyğun olması:**

I. *Azərbaycan Respublikasında istehsal edilməyən yeni rəqabətqabiliyyətli məhsul yaradılması*

II. *İstehlakın 50 faizdən artıq hissəsinin idxal hesabına ödənilən məhsulun yaradılması*

III. *Qonaqlama və yerləşdirmə xidmətlərinin (mehmanxana, motel, kempinq və s.) göstərilməsi*

## 1. Ümumi müddəalar

Bu Meyarlar "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanının 8.1.1-ci yarımbəndinə əsasən hazırlanmışdır və Azərbaycan Respublikasının mülki qanunvericiliyinə uyğun kommersiya hüquqi şəxs kimi "KOB klaster şirkəti"nin meyarlarını müəyyən edir.

## 2. "KOB klaster şirkəti"nin meyarları

### 2. 1 "KOB klaster şirkəti" kimi aşağıdakı vergi ödəyiciləri çıxış edir:

**2.1.1** Paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər istisna olmaqla, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun qaydada kommersiya hüquqi şəxs kimi dövlət qeydiyyatına alınan;
**2.1.2** əhəmiyyətli qərarların Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (bundan sonra - Agentlik) ilə razılaşdırmaqla yerinə yetirməsi nizamnaməsində əks edilən;
**2.1.3** həyata keçiriləcək KOB klaster layihəsinin çərçivəsində "KOB klaster şirkəti"nin qarşılıqlı surətdə asılı olmayan azı 10 mikro, kiçik və orta sahibkarlıq subyekti ilə təsərrüfat əqdlərini bağlaması və klaster üzrə hazırlanan məhsulun xammal və materialının dəyərinin 50 faizinin klasterin iştirakçısı olan yerli istehsalçılardan təchiz edilməsi;
**2.1.4** fəaliyyət sahəsinin aşağıdakı 3 istiqamətdən birinə uyğun olması:
***2.1.4.1*** *Azərbaycan Respublikasında istehsal edilməyən yeni rəqabətqabiliyyətli məhsul yaradılması;*
***2.1.4.2*** *istehlakın 50 faizdən artıq hissəsinin idxal hesabına ödənilən məhsulun yaradılması;*
***2.1.4.3*** *qonaqlama və yerləşdirmə xidmətlərinin (mehmanxana, motel, kempinq və s.) göstərilməsi.*

## 2.2 “KOB klaster şirkəti”nin həyata keçirəcəyi layihə üzrə investisiyanın minimum həcmi aşağıdakı miqdarda müəyyən edilir

**2.2.1** Bakı şəhəri (Bakı ətrafı qəsəbələr istisna olmaqla) - 5 milyon manat;
**2.2.2** Bakı ətrafı qəsəbələr və Abşeron rayonu - 3 milyon manat;
**2.2.3** Sumqayıt və Gəncə şəhəri - 2,5 milyon manat;
**2.2.4** 2.2.1-2.2.3-cü və 2.2.5-ci yarımbəndlərdə göstərilməyən şəhər və rayonlar üzrə - 1,5 milyon manat;
**2.2.5** Naxçıvan Muxtar Respublikası, Füzuli, Xocavənd, Ağdam, Tərtər, Ağcabədi, Goranboy, Göygöl, Gədəbəy, Daşkəsən, Qazax, Tovuz, Ağstafa, Lerik, Yardımlı, Balakən və Qusar rayonları üzrə - 0,5 milyon manat.

**2.3** 2.2.5-ci yarımbənd üzrə nəzərdə tutulan investisiyaların həyata keçirilməsi məqsədilə vergi ödəyicilərinin “KOB klaster şirkəti” statusunun alması üçün bu Meyarların 2.1.2-ci və 2.1.4-cü bəndləri üzrə nəzərdə tutulan meyarlara cavab verməsi tələb olunmur.

## 2.4. “KOB klaster şirkəti”nə dair tələblər aşağıdakılardır

**2.4.1** “KOB klaster şirkəti”nin layihə çərçivəsində illik dövriyyəsinin Agentlik tərəfindən qəbul edilən maliyyə-iqtisadi əsaslandırma sənədində nəzərdə tutulan (bu Meyarların 2.2-ci bəndində müəyyən edilən minimumdan az olmayaraq) investisiya həcminin 20 faizindən az olmamaqla müəyyən edilməsi;
**2.4.2** əməliyyatların tam həcmdə qanunla müəyyən olunmuş qaydada sənədləşdirilməsi (elektron qaimə-faktura, elektron vergi hesab-fakturası, yük gömrük sənədləri, ciddi hesabat sənədi olan alış aktları);
**2.4.3** əməliyyatlar üzrə hesablaşmaların nağdsız qaydada aparılmasına üstünlük verilməsi;
**2.4.4** bu Meyarların 2.1.3-cü yarımbəndi nəzərə alınmaqla son məhsulun (xidmətin) “KOB klaster şirkəti”nin iştirakçısı tərəfindən istehsal olunan hissələrdən komplektləşdirilməsi və bu zaman iştirakçıdan əldə edilmiş malların emal prosesinə məruz qalmaqla (əlavə dəyər yaratmaqla) təqdim edilməsi;
**2.4.5** “KOB klaster şirkəti”nin rəhbərinin və ya hər hansı təsisçisinin vergidən yayınma üzrə cinayət məsuliyyətinə cəlb edilməmiş olması.

2.5 “KOB klaster şirkəti” maliyyə-iqtisadi əsaslandırma üzrə fəaliyyətə başlaması barədə Agentliyə və Vergilər Nazirliyinə 3 gün müddətində məlumat verir. “KOB klaster şirkəti” tərəfindən bu Meyarların 2.4.1-ci yarımbəndi üzrə nəzərdə tutulan tələblərin tam həcmdə yerinə yetirilməsi vəziyyəti barədə arayış fəaliyyətə başladıqdan sonra hər təqvim ili başa çatdıqdan sonra 3 ay müddətində Agentliyə və vergi orqanına təqdim edilir.

2.6 Bu Meyarların 2.2-ci bəndi üzrə nəzərdə tutulan investisiyanın obyekti kimi əvvəllər sahibkarlıq fəaliyyətində istifadə edilmiş aktivlər, o cümlədən əsas vəsaitlər çıxış etmir və həmin aktivlərin dəyəri “KOB klaster şirkəti”nin həyata keçirəcəyi layihə üzrə investisiyanın həcminə daxil edilmir. “KOB klaster şirkəti”nin aktivi kimi yalnız “KOB klaster şirkəti”nin tərəfindən bu Meyarlarla müəyyən olunmuş investisiya qoyuluşu çərçivəsində gömrük qanunvericiliyinə uyğun olaraq idxal gömrük sənədləri əsasında əldə edilmiş aktivlər və ya Vergi Məcəlləsinə uyğun olaraq elektron qaimə-faktura və ya elektron vergi hesab-fakturası əsasında əldə edilmiş aktivlər çıxış edə bilər.

2.7 “KOB klaster şirkəti”nin bu Meyarlara cavab verməsi Agentlik tərəfindən Vergilər Nazirliyi ilə razılaşdırılmaqla təqdim edilmiş şəhadətnamə ilə təsdiq edilir.

## “KOB klaster şirkəti”nin həyata keçirəcəyi layihə üzrə investisiyanın minimum həcmi aşağıdakı miqdarda müəyyən edilir:

| | |
|---|---|
| 5 MLN | • Bakı |
| 3 MLN | • Bakı ətrafı qəsəbələr və Abşeron rayonu |
| 2.5 MLN | • Sumqayıt və Gəncə |
| 1.5 MLN | • Digər şəhər və rayonlar |
| 0.5 MLN | • Naxçıvan Muxtar Respublikası, Füzuli, Xocavənd, Ağdam, Tərtər, Ağcabədi, Goranboy, Göygöl, Gədəbəy, Daşkəsən, Qazax, Tovuz, Ağstafa, Lerik, Yardımlı, Balakən və Qusar rayonları |




*KOB Klaster şirkəti statusunu almaq üçün, fəaliyyət sahəsinə və ya məhsula dair tələb və qərarın verilməsinə, KOBİA ilə razılaşma tələb olunmur*

## Azərbaycan Respublikasının Vergi Məcəlləsində KOB klaster şirkəti və KOB klasterin iştirakçısı üçün aşağıdakı vergi güzəştləri nəzərdə tutulmuşdur

**KOB klaster şirkəti KOB klaster şirkətlərinin reyestrinə daxil edildiyi tarixdən 7 il müddətinə aşağıdakı vergilərdən azaddır:**




*Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin təsdiqedici sənədi əsasında istehsal, yaxud emal məqsədləri üçün texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı – ƏDV*

## Azərbaycan Respublikasının Vergi Məcəlləsində Dəyişiklik edilməsi haqqında, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Kollegiyası tərəfindən 7 Nömrəli qərar

- "KOB klasterinin iştirakçısı şəhadətnaməsi"nin
- "KOB klaster şirkətinin şəhadətnaməsi"nin
- "KOB klaster şirkəti tərəfindən istehsal, yaxud emal məqsədləri üçün texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı barədə təsdiqedici sənəd"in
- "Startap şəhadətnaməsi"nin formalarının və həmin sənədlərin verilməsi üçün ərizə formalarının təsdiq edilməsi

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin kollegiyasının________2019-cu il tarixli ________ nömrəli qərarı ilə təsdiq edilmişdir (Əlavə nömrə 1)

**KOB KLASTERİNİN İŞTİRAKÇISI ŞƏHADƏTNAMƏSİ**

№___________ _______________20__il

_______________________________________________

*(Sənədin verildiyi fərdi sahibkarın adı, soyadı, atasının adı/ VÖEN-i)*

_______________________________________________

*(KOB klasterinin iştirakçısının ünvanı)*

_______________________________________________

*(KOB klasterinin iştirakçısının həyata keçirdiyi fəaliyyət növlərinin kodları)*

_______________________________________________

*(KOB klaster şirkətinin adı və reyestr nömrəsi)*

Bu sənəd KOB klasterində fəaliyyət göstərmək üçün______________KOB klaster şirkəti ilə bağlanmış ____tarixli ___ nömrəli müqaviləyə əsasən verilmişdir və Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 102.1.32-ci maddəsində nəzərdə tutulan azadolmadan istifadə hüququ verir.

| ________________ | __________ | ________________ |
|---|---|---|
| *(Məsul şəxsin vəzifəsi)* | *(İmzası)* | *(Adı, soyadı)* |

M.Y.

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin kollegiyasının ________ 2019-cu il tarixli ________ nömrəli qərarı ilə təsdiq edilmişdir (Əlavə nömrə 2)

**KOB KLASTERİNİN İŞTİRAKÇISI ŞƏHADƏTNAMƏSİ**

№______ _______________20__il

_______________________________________________

*(Sənədin verildiyi hüquqi şəxsin tam adı / VÖEN-i)*

_______________________________________________

*(KOB klasterinin iştirakçısının hüquqi ünvanı)*

_______________________________________________

*(KOB klasterinin iştirakçısının həyata keçirdiyi fəaliyyət növlərinin kodları )*

_______________________________________________

*(KOB klaster şirkətinin adı və reyestr nömrəsi)*

Bu sənəd KOB klasterində fəaliyyət göstərmək üçün________________KOB klaster şirkəti ilə bağlanmış_____tarixli ___ nömrəli müqaviləyə əsasən verilmişdir və Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 106.1.22-ci maddəsində nəzərdə tutulan azadolmadan istifadə hüququ verir.

| ________________ | __________ | ________________ |
|---|---|---|
| *(Məsul şəxsin vəzifəsi)* | *(İmzası)* | *(Adı, soyadı)* |

M.Y.

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin kollegiyasının_________2019-cu il tarixli _______ nömrəli qərarı ilə təsdiq edilmişdir (Əlavə nömrə 3)

## KOB KLASTER ŞİRKƏTİNİN ŞƏHADƏTNAMƏSİ

№______ _______________20__il

_______________________________________________

*(Sənədin verildiyi hüquqi şəxsin tam adı / VÖEN-i)*

_______________________________________________

*(KOB klaster şirkətinin hüquqi ünvanı, reyestr nömrəsi)*

_______________________________________________

*(KOB klaster şirkətinin həyata keçirdiyi fəaliyyət növlərinin kodları)*

_______________________________________________

*(KOB klasterinin adı)*

Bu sənəd hüquqi şəxsin Azərbaycan Respublikası Vergilər Nazirliyinin Kollegiyasının 08.05.2019-cu il tarixli 1917050000007900 nömrəli Qərarı ilə müəyyən edilmiş meyarlara uyğunluğunu təsdiq edir və Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 106.1.21-ci, 199.15-ci və 207.6-cı maddələrində nəzərdə tutulan azadolmalardan və güzəştlərdən istifadə hüququ verir.

_________________ _________ ________________

*(Məsul şəxsin vəzifəsi)* *(İmzası)* *(Adı, soyadı)*

M.Y.

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin kollegiyasının___________2019-cu il tarixli _______ nömrəli qərarı ilə təsdiq edilmişdir (Əlavə nömrə 4)

**KOB klaster şirkəti tərəfindən istehsal, yaxud emal məqsədləri üçün texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı barədə**

## TƏSDİQEDİCİ SƏNƏD

№______ _______________20__il

_______________________________________________

*(Sənədin verildiyi KOB klaster şirkətinin adı, reyestr nömrəsi, VÖEN-i)*

_______________________________________________

*(KOB klaster şirkətinin hüquqi ünvanı)*

Bu sənəd aşağıdakı siyahıda göstərilmiş texnikanın, texnoloji avadanlıqların və qurğuların ölkəyə idxalı zamanı Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 164.1.40-cı maddəsində nəzərdə tutulan azadolmadan istifadə hüququ verir.

| Xarici İqtisadi Fəaliyyətin Mal Nomenklaturasının kodu (XİF MN-in kodu) | Malların adları | Miqdarı | Ölçü vahidi | Müqavilənin rekvizitləri (tərəflərin adları və müqavilənin bağlanması tarixi) |
|---|---|---|---|---|
| | | | | |

Bu təsdiqedici sənəd müvafiq gömrük orqanına təqdim edilmək üçün verilir.

_________________ _________ ________________

*(məsul şəxsin vəzifəsi)* *(imzası)* *(adı, soyadı)*

M.Y.

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin kollegiyasının __________ il ____________ tarixli_____nömrəli qərarı ilə təsdiq edilmişdir (Əlavə nömrə 7)

Fərdi sahibkara və ya hüquqi şəxsə KOB klasterinin iştirakçısı şəhadətnaməsinin verilməsi üçün ərizənin forması

____________________________________________________________

(müraciət olunan təşkilatın adı)

KOB klasterinin iştirakçısı şəhadətnaməsinin verilməsi üçün

ƏRİZƏ

1. Ərizəçi haqqında məlumatlar:

1.1. Hüquqi şəxsin tam adı/fərdi sahibkarın soyadı, adı, atasının adı ____________________

________________________________________________________________________________

1.2. Hüquqi şəxsin hüquqi ünvanı /fərdi sahibkarın ünvanı ___________________________

________________________________________________________________________________

1.3. Hüquqi şəxsin/fərdi sahibkarın VÖEN-ni ________________________________________

________________________________________________________________________________

1.4. Əlaqə telefonu ____________________________________________________________

1.5. İnternet ünvanı (vebsaytı) (əgər varsa) ________________________________________

1.6. Elektron poçtu (əgər varsa) __________________________________________________

________________________________________________________________________________

1.7 Hüquqi şəxsin/fərdi sahibkarın səlahiyyətli nümayəndəsinin (əgər varsa):

1.7.1 soyadı, adı, atasının adı ____________________________________________________

1.7.2 ünvanı __________________________________________________________________

1.7.3 əlaqə telefonu ____________________________________________________________

1.7.4 elektron poçtu (əgər varsa) _________________________________________________

1.7.5 etibarnamə haqqında məlumatlar _____________________________________________

1.8. fəaliyyət növü_____________________________________________________________

________________________________________________________________________________

1. KOB klasterinin iştirakçısı şəhadətnaməsinin verilməsini xahiş edirəm.

2. Ərizəyə aşağıdakı sənədlər əlavə edilir:

2.1. _________________klasterinin fəaliyyətində iştirak haqqında saziş

**Qeyd:** *ərizə səlahiyyətli nümayəndə tərəfindən təqdim olunduqda etibarnamə əlavə edilir.*

3. Hüquqi şəxsin qanuni təmsilçisinin/fərdi sahibkarın və ya səlahiyyətli nümayəndənin_____________________________________________________

(vəzifəsi, soyadı, adı)

________________________________________________________________________________

4. Ərizənin doldurulduğu tarix _________________________________________________

(gün, ay, il)

5. Hüquqi şəxsin qanuni təmsilçisinin/fərdi sahibkarın və ya səlahiyyətli nümayəndənin

_________________

(imza)

M.Y

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin kollegiyasının __________ il ____________ tarixli_____nömrəli qərarı ilə təsdiq edilmişdir (Əlavə nömrə 8)

KOB klaster şirkətinin şəhadətnaməsinin verilməsi üçün ərizənin forması

____________________________________________________________
(müraciət olunan təşkilatın adı)

KOB klaster şirkətinin şəhadətnaməsinin verilməsi üçün

ƏRİZƏ

1. Ərizəçi haqqında məlumatlar:

1.1. Hüquqi şəxsin tam adı ________________________________________________________
________________________________________________________________________________

1.2. Hüquqi şəxsin hüquqi ünvanı __________________________________________________
________________________________________________________________________________

1.3. Hüquqi şəxsin VÖEN-ni _______________________________________________________
________________________________________________________________________________

1.4. Əlaqə telefonu ______________________________________________________________

1.5. İnternet ünvanı (vebsaytı) (əgər varsa) ___________________________________________

1.6. Elektron poçtu (əgər varsa) ____________________________________________________

1.7 Hüquqi şəxsin səlahiyyətli nümayəndəsinin (əgər varsa):

1.7.1 soyadı, adı, atasının adı ____________________________________________________

1.7.2 ünvanı ______________________________________________________________

1.7.3 əlaqə telefonu ________________________________________________________

1.7.4 elektron poçtu (əgər varsa) ___________________________________________

1.7.5 etibarnamə haqqında məlumatlar ______________________________________
________________________________________________________________________________

1.8. KOB klaster şirkətinin həyata keçirdiyi iqtisadi fəaliyyət sahəsi _____________________
________________________________________________________________________________

1. KOB klaster şirkətinin şəhadətnaməsinin verilməsini xahiş edirəm.

2. Ərizəyə aşağıdakı sənədlər əlavə edilir:

2.1. KOB klaster şirkətinin dövlət qeydiyyatına alınması haqqında hüquqi şəxslərin dövlət reyestrindən çıxarış

**Qeyd:** *ərizə səlahiyyətli nümayəndə tərəfindən təqdim olunduqda etibarnamə əlavə edilir.*

3. Hüquqi şəxsin qanuni təmsilçisinin__________________________________________
(vəzifəsi, soyadı, adı)
________________________________________________________________________________

4. Ərizənin doldurulduğu tarix ____________________________________________
(gün, ay, il)

5. Hüquqi şəxsin qanuni təmsilçisinin və ya onun səlahiyyətli nümayəndəsinin

______________
(imza)

M.Y.

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin kollegiyasının ___________ il _____________ tarixli______nömrəli qərarı ilə təsdiq edilmişdir (Əlavə nömrə 10)

KOB klaster şirkəti tərəfindən istehsal, yaxud emal məqsədləri üçün texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı barədə təsdiqedici sənədin verilməsi üçün ərizənin forması

______________________________________________________________
(müraciət olunan təşkilatın adı)

KOB klaster şirkəti tərəfindən istehsal, yaxud emal məqsədləri üçün texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı barədə təsdiqedici sənədin verilməsi üçün
ƏRİZƏ

1. Ərizəçi haqqında məlumatlar:

1.1. Hüquqi şəxsin tam adı ____________________________________________________________

___________________________________________________________________________________

1.2. Hüquqi şəxsin hüquqi ünvanı ____________________________________________________

___________________________________________________________________________________

1.3. Hüquqi şəxsin VÖEN-ni _________________________________________________________

___________________________________________________________________________________

1.4. Əlaqə telefonu_________________________________________________________________

1.5. İnternet ünvanı (vebsaytı) (əgər varsa) _____________________________________________

1.6. Elektron poçtu (əgər varsa) ______________________________________________________

1.7. Hüquqi şəxsin qanuni təmsilçisinin:

1.7.1. soyadı, adı, atasının adı ________________________________________________________

1.7.2. ünvanı ______________________________________________________________________

1.7.3. əlaqə telefonu ________________________________________________________________

1.7.4. elektron poçtu (əgər varsa) ______________________________________________________

1.7.5. etibarnamə haqqında məlumatlar __________________________________________________

___________________________________________________________________________________

1.8. İqtisadi fəaliyyət sahəsi __________________________________________________________

___________________________________________________________________________________

1. KOB klaster şirkəti tərəfindən istehsal, yaxud emal məqsədləri üçün texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı barədə təsdiqedici sənədin verilməsini xahiş edirəm.

2. Ərizəyə aşağıdakı sənədlər əlavə edilir:

| Sıra №-si | Sənədlərin adı | Nüsxələrin adı | Vərəqlərin sayı | Qeyd |
|---|---|---|---|---|
| 3.1. | İdxalı nəzərdə tutulan texnikanın, texnoloji avadanlıqların və qurğuların siyahısı (siyahıda idxalı nəzərdə tutulan texnikanın, texnoloji avadanlıqların və qurğuların ABŞ dolları ilə dəyəri, xarici iqtisadi fəaliyyətin mal nomenklaturası (XİFMN) üzrə kodu, adı, XİFMN-də göstərilən ölçü vahidində miqdarı göstərilməlidir) | | | |
| 3.2 | İdxalı nəzərdə tutulan texnikanın, texnoloji avadanlıqların və qurğuların alınması ilə bağlı müqavilənin surəti | | | |

**Qeyd:** *ərizə səlahiyyətli nümayəndə tərəfindən təqdim olunduqda etibarnamə əlavə edilir.*

3. Hüquqi şəxsin qanuni təmsilçisinin və ya onun səlahiyyətli nümayəndəsinin___________

___________________________________________________________________________________
(vəzifəsi, soyadı, adı)

4. Ərizənin doldurulduğu tarix ________________________________________________
(gün, ay, il)

5. Hüquqi şəxsin qanuni təmsilçisinin və ya onun səlahiyyətli nümayəndəsinin

____________

(imza)

M.Y.